# Mən sevgidən danışmıram

## Natavan Faiqin “İki dünyaarası vuran nəbz” kitabından V.Səmədoğlu ilə söhbət (ixtisarla)



Vaqif Səmədoğlunun yazı masası (Səməd Vurğunun ev muzeyi)



Vaqif Səmədoğlu guşəsi (Səməd Vurğunun ev muzeyi)

- Mən sevgidən danışmıram...

**- Bir vaxtlar mənim üçün yay fəsli - Xəzər idi. Lakin sonra o, bir neçə dostumu apardı...**

- Yaxşı, olsun bulud. Biz onun nədən yarandığını, orda hansı kimyəvi və ya fiziki hadisələrin baş verdiyini bilirik... Lakin yenə də bu, mənim üçün sirrdir. Və nə yaxşı ki, belədir...

**- Hər dəqiqə şəkil yerdəyişməsi... Nə şifrələr, nə də işarələr göründüyü kimi deyil...**

- Səslər də var... Mən hələ sağam və vaxt imkan verdiyi qədər yaşayacağam... nə qədər ki, səslər var... Çünki səslər dünyası... Bax, mən bu gün sağalmaz xəstəliklərimlə...

**- Sağalması mümkün olan xəstəliklər yoxdur - görməmişəm...**

- Bu həqiqətdir. Şəkərli diabet də sağalmır, xərçəng də. Belə deyək, hansısa mərhələsini kimyaterapiya və ya nə iləsə saxlayırlar. (Pauza) Səslərdən danışırdım... Belə ki, bu cür xəstəliklərdə... Deyirlər kim ki, boğulur həmin anda bir anlığa da olsa, bütün həyatı gözləri önündən keçir... Bu cür hadisə ilə qarşılaşmamışam, bunu təsdiq edə bilmərəm, amma... keçir. Bütün həyat olmasa da, müəyyən yerlər. Nata, dəlicəsinə yenidən görmək istədiyim yerlər var. Bu, uşaqlığımda hər yay getdiyim Kislovodskidir. Ora getməyi arzulasam da, məndəki hipertoniya ilə mümkün deyil. Şəhər yüsəkdədir. Bir də Moskva konservatoriyası... (Şövqlə) Moskvaaa konservatoriyası... Heç vaxt bilməzdim ki, bu iki məkan ürəyimdə belə dərin iz qoyacaq. Moskva konservatoriyası - dəhşətdir! Dəhlizdə getdikcə siniflərdən gələn səslər... Çox güclü təsirdir! Mənə iki dəfə dərslərdə iştirak etmək xoşbəxtliyi nəsib olub. Mən professor Tatyana Petrovna Nikolayevanın tələbəsi olmuşam... Bilirsiz də, orda sinfin qapısını açıb dərsdə iştirak etmək üçün icazə almaq olurdu və...




**- Səslər mövzusunu davam etdirək...**

- Mənim o qədər də sevmədiyim yazıçı (bu, əlbəttə, subyektiv fikrimdi) Kuprinin çox gözəl bir hekayəsi var... Səslər haqqında. İki zabit gecə vaxtı səslərin sağlığına içir.

**- Hansı hekayədi?**

- Adını xatırlamıram...Orda gözəl bir sağlıq vardı: Xoruz banladı - sevinc! Uzaqdan araba keçdi, zabit sevindi! Gəl, süz!..

**- Bəxtəvərlər, oturub səs gözləyirlər... Hər səhər saat altıda eyvanımın altında buzov kəsirlər, elə bağırır ki...**

- Bu haqda yazın... ”Bu sağlığa içə bilmərəm. Niyə? O əclafdı axı, təkərləri yaxşı yağlamayıb!” Məni çox təsirləndirdi. Baxmayaraq ki, sərxoşdur, o unutmayıb ki, təsərrüfatçıdır! Gözəl hekayədi!

**- Sizin şeirlər... Orda hər şey qat-qatdı, fikrin axıra kimi açılmaması, hər şey nüanslarladı... Dünyada hər şeyin yerini dəyişməsi. Bu kombinasiyalarda...**

- Mənim şeirlərimdə?

**- Hə. Düzünü deyəcəyəm, oxudum və heç yarısını da anlamadım. Onlara çatmaq üçün böyümək lazımdı, əlbəttə, bəxtin gətirsə. Bilirsinizmi, bunlar ona görədir ki, siz bizdə yeganəsiz ...**

- Mənə düzünü deyin... Gəlin, mən başlayım. Xəzər dənizi... Siz onu başa düşürsüz? Mən hələ yox...

**- Hansı mənada?**

- Yəni, mən hələ də onun nə olduğunu anlamamışam...

**- Amma onu sevmirəm...**

**- Klassik akademik musiqi təhsiliniz olmasına baxmayaraq siz fikrinizi başqa sahəyə yönəltmisiz. Musiqi tarixində buna bənzər hadisə olub - Şuman, çox çalmaqla əllərini gücə salmış və ifaçılıqdan əl çəkməyə məcbur olmuş, musiqi bəstələməyə başlamışdı... Sizi dinləyirəm, deyəsən, o zaman musiqidən getdiyiniz üçün peşmansız...**

- Mən heç yerə getmədim. Sadəcə dərs deyə bilmədim, vəssalam. Artıq bacarmırdım. Səkkiz il konservatoriyada dərs demişəm. Axı bu ”marksizm-leninizmin əsasları” deyil ki, birdəfəlik əzbərləyib ömrünün sonuna kimi leksiya deyəsən... Tələbələr ifa etməyimi tələb edirdi... Mən isə çalmaq istəmirdim...

**- Daha bir uyğunluğumuz da var. Xeyli stajımın olmasına baxmayaraq pedaqogikaya nifrət edirəm...**

- Amma mən pedaqogikanı çox sevirəm, sadəcə dərs deməyi bacarmıram. Bacarmıram, vəssalam. Konservatoriyanı tərk edəndə tələbələrimi toplayaraq üzr istədim və dedim: Uşaqlar, bağışlayın, siz öz vaxtınızı boş yerə itirirdiz...

**- Yəni nəticələr müsbət deyildi, yoxsa...**

- Bir tələbə qız gedib rektora ərizə yazmışdı, guya, mən heç nə göstərmirəm. Qız tamamilə haqlı idi. Ondan ərizəsini geri götürməsini xahiş etdim. Bunu niyə etdiyimi başa düşmədi, ərizəsini Cövdət İsmayıloviç Hacıyevin katibəsindən götürdü. Mənə verib, -Vaqif Səmədoviç necə istəyirsiz elə də olsun, - dedi... Dedim, bunu özünüzdə xatirə olaraq saxlayın, ərizəni isə mən özüm yazacağam. Belə...

**- Əgər həmin tələbə ərizə yazmasaydı, bu vaxta qədər dərs deyəcəkdiz?**

- Heç vaxt. Bu düzgün deyil axı. Bu ədalətsizlikdi. Təsəvvür edin, tələbə məndən daha yaxşı ifa edir...

**- Bəs konsert verən pianoçunun perspektivi cəlb etmirdi sizi?**

- Rixterdən sonra çalmaq... Başa düşürdüm ki, bu...

**- Amma Yakov Flier hər kəsi inandırmağa çalışmazdı ki, pianoçu olsun. O, məhz sizin ”fantastik əllər”inizə vurulmuşdu...**

- Elədir. ”Mən laureatlar yetişdirirəm, sən də onlardan biri olmalısan!” Mənsə bunu istəmirdim.

**- Niyə?**

- (Pauzadan sonra). Bilirsiz, konsert vermək nə deməkdir? Gün ərzində 8-10 saat royal arxasında oturmalısan! Mən Vova Aşkenazi ilə tanış idim, Lev Vlasenko ilə, rəhmətliklə...

**- Matuşkin?**

- Yox, Matuşkin bizimkidi... Hə, Matuşkinin məni necə qovduğu da tez-tez yadıma düşür. Ona baş çəkməyə getmişdim, o da mədə xərçəngi idi... Məndən soruşdu: ”Morfi gətirmisən?” Dedim: Vitka, desəydin çalışıb tapardım, bilmirdim...” Özün təxmin edə bilməzdin? Xərçəng xəstəsinə baş çəkməyə gəlirsən axı”... Həmin gün Vitka məni qovdu. Ruhu şad olsun... Qayıdaq bizim buludlara...

**- Qayıdaq. Siz onların kimyəvi tərkibi haqqında danışdız... Bu yaxınlarda anladım ki, bəzən not biliyim mənə mane olur. Musiqini sizin buludlar kimi görmək istəyirəm. Onun necə bir möcüzə olduğunu anlamaq çətindi! Hətta məni riqqətə gətirən musiqi də barmaqlarımın ”ixtiyarına keçən” kimi, həmin anda fikrimdə not halına çevrilir... Düşünürəm ki, bu bütün musiqiçilərdə belədir: orda - do-diez, si- bemol, burda bir tersiya aşağı. Başa düşürsüz?**

- Yox.

**- Konservatoriya təhsilinin çoxlu müsbət tərəfləri olduğu kimi bir mənfi cəhəti də var. Mən heç zaman musiqinin notsuz, onun ilkin audial görünüşündə necə ”göründüyünü” bilməyəcəyəm. Hər bir motivi ancaq işarələrlə təsvir edirəm. Onun özlüyündə necə mövcud olduğunu isə bilmirəm. Bunu onunla müqayisə etmək olar ki, kişilər heç zaman hamiləliyin nə demək olduğunu bilməyəcəklər.**

- Mən fikrimi deyərdim, Natoçka , amma qorxuram inciyərsiz

**- Mən inciməyi bacarmıram. Musiqiçi ”qulağı” musiqini mənimsəməyimə mane olur Hələ indi-indi bundan azad olmağı öyrənirəm**

- Azad olmaq lazım deyil. Görmək - bu ki, xoşbəxtlikdir!

**- Mənsə eşitmək istəyirəm. İşarəsiz, notsuz onu hiss etmək istəyirəm. Bütün varlığımla. İçində ərimək istəyirəm**

- Yox, nə danışırsız! Musiqini eşidirək, görmək və görərək eşitmək. Bu ki, əsl xoşbəxtlikdir! Bu musiqinin özüdür! Mən ifa edəndə Bilirsiz bunu mənə kim öyrədib? Xəyyam Mirzəzadə. Məni, Rauf Abdullayevi, başqalarını Heç vaxt partiturasız, notsuz musiqini dinləməmək! Bax, mən pianoçuyam, amma orkestrovkanı görürəm Özü də təkcə motivi yox. Məsələn, siz klarnetdə in B, in C -ni bilirsiz? Bax, mən onları da bilirəm



Vaqif Səmədoğluya aid əşyalar (Səməd Vurğunun ev muzeyi)

**- Toskanini kimi - ”Partituranı görürəm”**

- Bu, əlifba kimidi

**- Yəni bizim konservatoriyada pianoçulara belə dərin biliklər verirdilər?**

- Heç vaxt. Dedim axı, bu bilikləri mənə böyük yoldaşım Xəyyam vermişdi. O, yaxşı musiqiçidir. Musiqiçi kimi daha güclüdür, nəinki bəstəkar kimi.

**- O, Qara Qarayev məktəbi keçib, deyəsən Ona görə öyrətməyi, bölüşməyi bacarır Yüksək dərəcəli peşəkarlarda bunu çox görmüşəm**

- Bu o qədər də mühüm amil deyil. Hamı bölüşmür

**- Yəni musiqi təhsili verərək nəyisə gizlətmək olar?**

- Yox, amma Bülbülə belə gəlirdi. Onun Mahaçqalada bir tələbəsi var idi, tenor Vova Sergeyev. Bir dəfə soruşdu: maestro, Kavaradossinin ariyasını oxuyanda döş qəfəsinizi necə qaldırırsız, diafraqmanı necə sıxırsız? Maestro dedi: ə-ə Sergeyev tülkü və qarğa təmsilini bilirsən? Qarğa ağzında pendirlə gəlir, oturur ağaca, tülkü deyir: qarğa, sənin necə gözəl səsin var. Oxu da. Qarğa-aaaaaaaaaaaaaa və pendir düşür. Tülkü yeyir İndi istəyirsən ki, mən qarğa olum, sən tülkü? (qəhqəhə çəkir) Bax, bu pedaqoqdu Bu dahiyanədi!

**- Amma hər halda səmimidi Kolorit var, əsl maestro**

- Unikal adam idi Hər sahədə

**- Bəs Qarayev...**

- Qarayev öyrədirdi. Mən onu sevirəm. Məni neçə dəfə kənar hücumlardan da qoruyub.

**- Siz onunla oxşayırsız...**

- Bilmirəm, amma bu barədə eşitmişəm. Sadəcə məndə söz vasitəsi ilə izah etmək yoxdu: ”bu cür de, yox bu cür”. Dahi idi, nə deyəsən...

**Söhbətləşdi: Natavan Faiq**
**Rus dilindən tərcümə edən: Xatirə Nurgül**